**Leyla Firdovsi qızı ƏFƏNDİYEVA**
Qərbi Kaspi Universitetinin "Dizayn" kafedrasının müəllimi
Azərbaycan Rəssamlar İttifaqının,
IWS Azərbaycan Sulu boya ittifaqnın,
VIPAA.Beynəlmiləl Rəssamlar cəmiyyətnin,
Xalça İctimai Birliyinin üzvü.
E-mail: Leylavazehi9@gmail.com

# QƏDİM AZƏRBAYCAN TARİXİNDƏ ŞİRVAN XOVSUZ XALÇALARIN İŞLƏNMƏ TEXNOLOGİYASI VƏ ORNAMENTLƏRİ

**Xülasə**

Məqalədə Xalçaların və xalça məmulatlarının təsnifatı zamanı onların xovlu və xovsuz növləri bölünməsi və aralarındakı fərqləri göstərir. Əsas olaraq isə Xovlu xalçaların növlərinin öz aralarında fərqləndirən önəmli səciyyələrindən bəhs edir. Şirvan xalçaçılıq məktəbinin xovsuz xalçalara qatdığı zənginlik, fərqlilik, rəng, forma və kompozisiyaların təcəssümü öz əksini tapmışdır. Xalçaçılığın başlandığı gündən bu günə qədər keçdiyi yol, tarixi və dəyişimlərindən bəhs edilir.

**Açar sözlər:** Xovsuz xalçalar, Xalçaların təsnifati, Şirvan xalçaları, Azərbaycan xalçaları, inkişaf.

**DOİ:** https://doi.org/10.54414/XVDD9897

**Giriş**

Qədim tariximiz olan ana vətənimiz Azərbaycanda maddi və qeyri maddi sənət əsərləri yaranmışdır.Bu sənət əsərlərinin hər biri ayrı-ayrı qruplara bölmək olar. Ən qədim sənət sahələrinin ən başında Dekorativ Tətbiqi sənət əsərləri gəlir. Bunlara misal olaraq dulusçuluq, keramika, bədii şüşə, bədii oyma, ağac, şüşə, metal, daş, sümük üzərində olan işləmələr həmçinin kəlağayı, batika, qobilen və başqa növləri misal göstərmək olar. Göründüyü kimi çox dolğun olan bu sənətə həmçinin "xalq sənəti"də deyirlər. Bu sənət sahələrinin hər biri öz özəlliyi ilə fərqləndirilir.

Azərbaycan ən qədim yaşayış məskənlərindən olan bir ölkədir. Bu ölkənin tarixiliyi onun maddi-mədəni irsinə də bir başa təsir göstərmişdir. Hələ qədim zamanlardan insanlar oturaq yaşayış evlərinə keçid edən zaman evlərinin yerlərinə döşəmək üçün ilkin xalçaların istehsal etməyə başladılar. Beləliklə, həm keçmişdə həmdə günümüzdə xalça evlərimizin və yaşantımızın önəmli bir hissəsinə çevrildi.İlkin variantda yaranan xalça nümunələri məişətdə istifadəsinə olan ehtiyac üçün yaransa da sonradan bu dekorativ tətbiqi sənətin nümunəsi mürəkkəbləşərək zəngin sənət əsərlərinə döndülər.

Xalça toxumaları növlərinə görə iki qrupa ayrılırlar. Bu qruplar Xovsuz xalça və Xovlu xalça qrupu olaraq adlandırılır. İlk toxunulan xalçalar xovsuz xalçalar idi. Rahatlığı,asand toxuna bilməsi ilə ilk yaranan xalçalar xovsuz xalçalar idi. Xovsuz xalçalar həsirdən, yundan həmdə pambıqdan olur. Xovsuz xalça qruplarına çətən, həsir, palaz, kilim, cecim, vərni, ladı, şəddə, zili və sumax xalçaları aiddir. Bu xovsuz xalçaları qrupuna aid olan toxunuş tipləri ərqac iplərin arasından əriş ipləri "sadə keçirtmə", "mürəkkəb keçirtmə", "sadə dolama", "mürəkkəb dolama" üsuli ilə toxunulur.

Xovlu xalçalar isə nisbətən mürəkkəb üsulla toxunulur. Bu üsullar "İlmə-düyüm ", yəni dolama ilmə həmçinin "Qulabi ilmə "lər vasitəsi ilə yaranır. Xalçaların yaranma və təkmilləşmə dövrünə nəzər atsaq məqsəd ve texnika etibarı ilə bu xalçalar uzun dörd dövürdən keçiblər. İnkişaf, böyümə yolunu bu sıralama ilə göstərmək olar.

Birinci dövr: Xalça sənətinin ən erkən dövrüdür desək yalan olmaz.Bu dövrdə insanlar sadəcə ilkin tələbatlarını qarşılamaq üçün bu yeni sənət sahəsini kəşf etdilər. "Sadə keçirtmə"nin yarandığı bu dövrdə insanlar əriş və ərqacların bir-birilərinin arasından keçirərək yerləşə döşənə biləcək erkən xalça növlərini

düzəltdilər.Bu adətən həsirlərdən düzəldilirdi. Təsərrüfat inkişaf etdikcə maldarlıqla məşğul olan insanlar ev heyvanlarından tüklər alıb onları əyirərək ilkin saplar aldılar və sadə zolaqların keçirilməsi ilə heyvanların öz tüklərinin rəngində yeni-yeni xalçalar yarandı. Bu xalçalar palazlar idi.

İkinci dövr: Bu dövrdə isə xalçalar nisbətən inkişaf etdi. Bu zaman xovsuz xalçaların ən gözəl nümunələri olan Kilim yaranmağa başladı. Bildiyimiz kimi Kilim də orta " Sadə dolama " üsulundan istifadə olunur.Və bu etap dünyada Xalça toxuma texnikasının inkişafı üçün əvəzsiz kömək oldu. Həmçini çox sadə və həndəsi naxışların yaranması öz dövrü üçün çox böyük tərəqqi idi.

Üçüncü dövr: Zaman irəliyə getdikcə xovsuz xalçaların növlərinin artdığı və inkişaf etdiyi zaman oldu. Bu gözəl xalça nümunələrinə misal olaraq Vərni, Şəddə, Zili, Sumax göstərmək olar. Beləliklə, artıq "Mürəkkəb dolama " dövrü yaranmışdır. Texnikaların mürəkkəbləşməsi ornamentlərin artımına və zənginləşməsinə səbəb oldu.Bu bir-birində maraqlı ornamentlərin sistemli yığılmasından fərqli,zəngin kompozisiyalar yaranır.

Dördüncü dövr: Artıq mürəkkəb toxunma üsulunun inkişaf edib xovlu xalçaların yarandığı dövr olaraq bu zamanı qeyd edə bilərik. Düyünləmə yəni "dolama ilmə"sonralar isə "Qullabi ilmə" yarandı. Artıq xalça kompozisiyalarının müxtəlifləşməsi, zənginləşməsi gözlə görünür şəkildə dəyişdi. Ən əsasda xalçalar bu üsulla toxunan zaman xovlu olmağa başladı. Bu öz növbəsində xalçaların intibahı oldu desək yalan olmaz. İnanılmaz şəkildə çox olan ornamentlərin yaranması fərqli- fərqli kompozisiyaların yaranmasına səbəb oldu.

Əsrlər boyu xalqın maddi və mənəvi həyatının əsasını təşkil edən xalçaçılıq Azərbaycan xalqı arasında qədim ənənəvi peşə növlərindən biri olmuşdur. Bu xalçalar iki qrupa bölündüyü kimi dörd böyük növə ayrılırlar.

1. Quba-Şirvan növü
2. Gəncə-Qazax növü
3. Qarabağ növü
4. Təbriz növü

Quba-Şirvan qrupuda özlüyündə iki ayrı qrupa ayrılır Quba və Şirvan olaraq adlandırılır.Şirvan qrupu xalçaçılıq tarixində üç böyük bölgə ilə təmsil ounur. Şirvan, Bakı və Quba. Bu bölgələrin Şirvanla ümumi ortaq keçmişlərinin olmasına rəğmən onların tarixlərinin ayrı-ayrılıqda öyrənilməsinə təşəbbüs yaradır. Xanlıq dövrlərinin yaranması öz daxilində ümumi adət ənənələrin saxlanmasına ,yaşadılmasına baxmayaraq fərqli-fərqli incəsənət, təsərüffat, iqtisadi həyatda dəyişikliklərin yaranmasınna gətirib çıxartdı. Belə olduğu təqdirdə bu bölgələrin hər birinin gətirdiyi yenilik və fərqlilikləri öyrənmək lazım gəlir. Şirvan qrupu Şamaxı xalçaçılıq məktəbi kimidə adlandırılır. Azərbaycan xalçaları içərisində istər rəng, istər kompozisiya quruluşu, istərsə də materialı baxımından bu xalçalar Şirvan xalçaları böyük yer tutur. Bu xalçalar incəsənət incisi olmaqla yanaşı həmdə maddi və mənəvi olan bir xəzinədir. Xalçaların belə inkişaf etməsi bu zonalarda ustad xalçaçıların olmasının göstəricisidir.

Qoyunçuluğun inkişafına Şirvanda xüsusən diqqət yetirirdilər. Kənd insanlari zərif yunlu qoyunların artımı üçün xüsusi səylə işlər görürdülər. Maldarlığın artımı yun iplərə qarşı olan tələbatı aradan qaldırır və buda xalçaların toxunulması üçün münbit zəmin yaradırdı. Adətən ağ yunlu qoyunların artırılmasına üstünlük verirdilər. Ağ və zərif yun boyanan zaman rəngi asanlıqla tutduğundan iş prossesi üçün əlverişli idi. Ucsuz bucaqsız çəmənlikləri olan Şirvan Pirqulu, İsmayıllı, Talış cəngi heyvanların otarılması üçün əlverişli yerlərdir.

Digər xalçalarımızın boyanması kimi Şirvan xalçalarıda iki üsulla boyanılır.Birinci üsulla boyanan zaman boya suya qatılır və hazır qaynamış boyalı suya toxunulacaq saplar əlavə edilir.İkinci üsulda isə boyalar və rəng almaq üçün qatılacaq məhsullar eyni anda qazana əlavə edilir və birlikdə aramla qaynadılır.Rənglərin tünd alınması üçün sapları boyalı suda nisbətən çox saxlamaq olar və yaxud əksinə tez sudan xaric edərək saplarda açıq tonlu rəngləri almaq olar (Şəkil 3). Əsas faktor olaraq bunu qeyd etməliyəm ki, Şirvan xalçaları boyanan zaman təbii məhsullardan istifadə edilərək boyalı saplar alınırdı. Buda öz növbəsində keyfiyyətli xalçaların toxunulacğının zəmanəti idi. Bu rənglərə nümunə olaraq 17-ci əsrlərdə toxunulan xovsuz Zili xalçasını göstərmək olar ( Şəkil 1). Bu xalça günümüzə qədər öz gözəlliini və rəng şuxluğunu qoruyub saxlaya bilib. Xalça Şamaxının Dağ Kolanı kəndində ərsəyə gəlib. Öz zərifliyi ilə bu xalçaların noxudu rəngli yerlikləri göz oxşayır.

Zamanın aşımına uğramasına baxmayaraq bu yun xalça hələdə Zili xalçaları arasında özünə layiqli yer tutmuşdur. Xalçanın ara sahəsinin aşağı hissəsində Həştərxan toyuqları işlənilmişdir. Toyuqların yerliyi innabı rənglə toxunulub. Xalçanın mərkəzində göl elementi yerləşib. Ümumu olaraq isə ara sahədə kiçik ölçülü doldurucu elementlər yerləşib. 19-cu əsrə aid olan digər xalça isə Məşrəfən xovsuz xalçasıdır. Bu xalça Şirvan qrupunun Ağsu şəhərinə aid olan bir xalçadır. Xalçanın yerliyi sürməyi rənglə işlənilib. Haşiyələrinyerliyi şəkəri, sürməyi rənglidir.Ara sahədə altı cərgədə səkkiz bucaqlı göl elementləri işlənilib. Xalça kompozisiyaları digər kompozisiyalar kimi həndəsi formalıdır. Haşiyəsində isə Qarmaqlı element təsvir olunub. Bu ornament Yunan memarlığında qarşılaşdığımız meandrı xatırladır. Meadnrların növbələşməsi zamanı toxucu yerliklərin fərqli rənglərə sürməyi, şəkəri və noxudu rənglərlə tamamlayıb (Şəkil 2).



**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**

Şirvanda ən çox yayılan xovsuz xalça texnikası ilə toxunan xovsuz xalçalar palaz,cecim, kilim və sumax texnikası olə toxunan xalçalardır. Xovsuz xalçaların ən sadə növü palazdır. Şirvan palazları arasında ən məşhur palaz “Taxta mica” xalçasıdır.Palaz xalçaları xalça sənətinin ilkin yaranmağa başladığı dövrdən inkişaf etməyə başladı. Bu xalçalar toxunulan zaman arğacların ərişlərə keçirilməsi ilə sadə toxunuşla toxunulur. Sadə toxunulan palazlar xüsusi xalça toxunma mərkəzləri olmadan toxunulurdu. İlk toxunulan palazlar tərkib olaraq çətənə lifindən toxunulan “Kəndir palazlar” idi. Sonrakı zamanlarda maldarlığın inkişsafı ilə insanlar təbii heyvan yunundan saplar alaraq xalça toxunulmasında yeniliyə addım atdılar. Yalnız unutmamaq lazımdır ki,bu palazların rəngi təbii yun rəngində olurdu. Sonradan isə yeni-yeni rəng hazırlanmasını öyrənəndən sonra palazlar rəngbərəng zolaqlar əsasında şuxluq qazandı. Raportlar tamamlandıqca göz oxşayan rənglər ərsəyə gəlməyə başladı. Xüsusi zərifliyi ilə seçilən Şirvan xovsuz xalçalarında hətta ipək materialdan ipək xalçalar toxunulurdu. Şirvan xalçaları daha zərif olurdu. Həmin zamanlarda toxunulan palazlar interyerlərin, karvansarayların, məscid, sarayların, evlərin xüsusi bəzək elementi idi. Bu xalçaların rast gəlinmədiyi heç bir ev, mülk yox idi. Parça halında olan palazlardan hətta geyimlərdə hazırlanılırdı. Palazlar xalçalarının hər iki üzü istifadəyə yararlı olur. Palazların nisbətən mürəkkəb forması isə “Çiyi palaz” adlanır. Palazlar ilə eyni xarakteristikaya malik olan bu xalçalara sancma üsulu ilə üzərinə sadə ornamentlər işlənilir.Bu naxışlar həndəsi formalı olur. Palazlara nisbətən mürəkkəb texnikalı olan bu xovsuzlarda da rəng raportlarının fərqlənməsi müxtəlif rəngli kompozisiyaların yaranmasına səbəb olur. Rəng seçimlərini ustad xalçaçılar seçirdilər. Üzərinə işlənilən naxışlar nazik iplər vasitəsi ilə olur. Adətən bu naxışlar ”S” şəklində olur. “S” xalça dünyasında suyu təsvir edir. Suyun təbiətdə dövr edərək 3 formaya düşüb sirkulyasiya etməsini göstərir. Suyun təbiətdə dövr olunaraq su halından buxar halında göyə qalxıb sonra yenidən buz halında yerə tökülüb suya dönüşməsini göstərir. Bəzən isə bu element “S” hərfi mifoloji varlıq olan əjdahanı təmsil edir. Lakin burada əjdaha mənfi obraz deyil,müsbət obraz rolunu oynayır.İnanclara görə bu ornamentin işlənildiyi xalça evə ruzu və bərəkət bəxş edir. Çiyi palazlarda həmçini Həştərxan xoruzlarıda təsvir olunurdu. Digər stilizə olunmuş quş,heyvan obrazlarına

rast gəlmək olar. Palaz zolaqları arasında "Siçan dişi" elementləridə bir çox hallarda istifadə olnur. Toxunulmuş məhsullar fərqli-fərqli məişət istifadəsi üçün nəzərdə tutulmuşdur. Bəzən döşəmənin isidilməsi, bəzən alaçıqların örtülməsi hətta geyimlərin bəzədilməsində də istifadə olunub.

Cecim xalçalarıda Şirvan qrupu xalçalarında sevilən xalçalardan biridir. Bu xalçaları xovsuz xalça növünə aid olan ən qədim xalça növünə aiddir. Qadınlar bu xalçaları yer hanalarında toxuyublar. Xalçaların hanaları üfüqi dəzgahlarda toxunub. Bu xalçalar əsasən arğaclardan deyil ,arişlərin sayəsində formalaşır. Alınan xalçalar çox ensiz lakin uzun formalı olur.rəng raportlarının uzununa dəyişməsi ilə xalçanın forması yaranır.Bu xalçalar zərif olur. Xalçalar xam ipəkdən ,adi ipək materialdan toxunulur. Bəzən isə quzuların qırxılan ilk yunlarından xalça toxunulur. Dekorativ məqsədlərlə işlədilən bu xalçalar ornamentlərin zənginliyi ilə öz kompozisiyasına mükəmməllik qazandırır. 20-ci əsr də Azərbaycan cecim xalçaları bütün Qafqazda məşhurlaşmışdır. Xalçalar pərdə,yataq üstü,ibadət xalçası,heybə,döşəkcə üzü kimi istifadə olunurdu.Xalçalar ensiz olduqları üçün bəzən bir- birinə tikilərəkdə istifadə olunur.

Digər məşhur xovsuz xalça növlərindən biridə Ladıdır. Ladını toxuma texnikasında digər xovsuz xalçadan palaza nisbətən bənzəsədə palazdan xeyli fərqlənir. Çünki bu xalça toxunan zaman arğac ərişlərin arsından müəyyən say hesabı ilə keçirilir. Palazda isə bu belə deyil. Ladıda Cecim kimi yer hanasında toxunulur. Arğacın ərişlərin arasından keçirilməsi zamanı xalçada müəyyən formalı (yığılan və açılan)rənglər yaranır. Buda sadə kompozisiyaya özünə məxsusluq verir. Xalçanın istifadəsi ən çox köçəri yaşayan insanlar üçün münasibdir. Çünki yüngül olan bu xalçanı daşımaq və fərdi yerlərdə istifadə etmək üçün çox əlverişlidir. Azərbaycanın dağ kəndlərində daha çox tələbat görən bu xalçalar yerlərin qızdırılması üçün ayaq altılıq olaraq ve çadırlarda ara kəsmələr kimi istifadə olunur.

Kilim xovsuz xalçaların ən sevilən növlərindən biridir. Bu xalçalar Şirvan xalçalarının ən zərif nümunələrindəndir. Kilimlərdə adətən əriş iplər boyanmır. Lakin bəzən boyanmış iplərdəndə istifadə olunur. Bu xalçalarda ornamentlərin təsvir edilməsi zamanı arğaclar dəyişilir. Arğaclar dəyişilən zaman isə rəng boşluqları zamanı alınan hissəyə "dırnaq dəlikləri" deyilir. Lakin bunu unutmamaq lazımdır ki, bütün kilim xalçaları "dırnaq dəlikləri" olmur. Naxışın rəngi dəyişdiyi zaman, arğaclar dəyişilir. Bu sap dəyişimi nəticəsində bəhs etdiyimiz dəliklər yaranır. Rəngarəng kilimlər böyük çoxluqla digər xovsuz xalçalar kimi iki üzlü toxunur. Kilimlərdə təsvir olunan naxışlar həndəsi fiqurlu olur. Bəzi xalçalar palazlarla kombinə olunur. "Karpud" adlanan bu xovsuz xalçalar toxunan zaman gəzməli kilim deyilən mürəkkəb texnika ilə toxunulur. Şirvan məktbinin bu gözəl xalçaları xüsusi göz oxşayanlığı ilə mükəmməl kompozisiyalar yaradır. Bu mürəkkəb dolamalı toxunan kompozisiyalar konturlu olur. İstnilən hər bir mürəkkəb quruluşlu detal kompozisiya quruluşuna özəllik qatır. Digər gözəl xalça kompozisiyası olan "Qədirqə" kilimləri özünə məxsus gözəlliyi və zərifliyi ilə seçilirdi.Bu xalçalar o qədər zərif olurlar ki, bu xalçaya toxunan zaman parçaya toxunulmuş təəsüratı yaranır. Digər kilimlər kimi sadə rəngli əriş və lazım olunan rəngli arğaclarla naxışlar vurulurdu. Bu saplar sadə keçirtmə texnikası ilə bir-biriləri üzərində oturular. Xalçalarda olan sıxlığa gəldikdə isə arğaclar bir sıx alt tarım, bir üst tökə keçirilir. Bu prosses ərişlərin üzərini tam şəkildə örtür. Belə olduğu halda kilimlər arğac üzlü, görünümlü olur. Kilimin naxışlarının cəlb edici olmasını istəyən toxucular canlı,parlaq rənglər seçirlər. Bu xalıların əsas toxunulma mərkəzi isə Şirvan, Bakı, Qarabağ, Qazax və Təbrizdir. Xalçalar həm yerlik kimi həm də dekorativ elementlər kimi istifadə olunublar. İnteryerlər də bu xalçalar divarlardan asılırdı. Alaçıqların üzərinə döşənir, ev heyvanlarının yük daşıdıqları torbaların üzərinə dekor kimi istifadə edilir, xurcunları bəzədilir, pərdə, süfrə və başqa məqsədlərlə çox geniş ölçüdı istifadə olunur. Bu kilimlərə istifadəsinə görə bu adlarla adlandırılırlar: "Çadır örtüyü", "Gərdəklik", "Qapılıq kilim", "Sərinkeş", "Namazlıq " və s. (Şəkil 4).



**Şəkil 4.** Kilim

Şirvan xalçalarında sumax və zili texnikası ilə toxunan xalçalar digər qruplardan öz zəriflikləri ilə çox-çox fərqlənirdilər. Başlıca şərt materialın yumuşaqlığıdır. Bu xovsuz xalçalar tərəkəmələrin həyatında önəmli rol oynayırdı.İnsanlara əsas olaraq yüngül, rahat daşınılan və dözümlü xalçalar lazım idi. Oturaq həyat sürən insanlara isə zərif parça kimi gözəl xalçalara üstünlük verirdilər. Sumax xalçaları yundan əyrilmiş iplərdən toxunulur. Xovsuzların ən zərifi bu xalçalar idi. Şirvan qrupu kimi heç bir qrupda bu qədər zərif olmurdu.Sumax toxunan zaman üç müxtəlif iplərdən istifadə olunur. Bu iplər əriş, ərqac və naxışlar üçün istifadə edilən iplərdir. Naxış ipləri ərişlərə mürəkkəb dolama ilə yəni "sarıma dolama" və ya "halqalı dolama" yolu ilə yaranır. Toxunan zaman sünbülvari düzülüş yaranıb ərişlərin üzərini örtür. Hər bir çin keçiriləndən sonra ,sadə arğac ipi sonra yenidən digər çin keçirilir.Sumax xalçalarının ən geniş yayılmış yeri istehsalat mərkəzi Şirvan zonasıdır.Əsasən bu möhtəşəm xalçalar Şamaxıda toxunulur. Həmçinin bu xalçalar Cənubi Azərbaycan, Qarabağ, Naxçıvan bölgəsində geniş yayılmışdır. Sumax bədii tərtibatında Şirvan xalçalarının kompozisiyaları geniş istifadə olunur (Şəkil 5). Sumaxlar əsasən məişətdə divarların dekorasiyası və ya yerliklər kimi istifadə olurdu. Alimlərin fikirlərinə görə bu xalçaların ən çox yayğın olduqları Şirvan qrupunun Şamaxı zonası ilə adı səciyyələndirilir. Sonralar isə bu xalçaları Azərbaycanın başqa bölgələrində də hətta sərhədlərindən kənarda da, Şimali Qafqazda toxunmağa başladı. Sumaxların ən gözəl nümunəsi Məxfur xalçasıdır.



**Şəkil 5.** Sumax

Xovsuz xalçaların mürəkkəb dolama ilə toxunan xalçalardan olan Şəddə və Vərnilərідə göstərmək olar. Bu xalçalar ən çox Qazax, Qarabağ, Cənubi Azərbaycanda toxunulur. Ən çox maldarlıqla məşğul olduqları heyvanların təsvirlərini bu xalçalara həkk ediblər. Şəddələrdə dəvələr, uçan şanapipik quşu, ördək, xoruz, tovuzquşu, həştərxan toyuqları təsvir olunmuşdur. Vərni xalçaları isə Əjdaha elementləri ilə işlənməkdədir. Bu əjdaha stilizə olunmuş halda əks edilir. Adət olaraq bu mifoloji varlıq olan xalçaları yeni ailə quran qızlara xoşbəxtliyin, ruzu bərəkətin simvolu olaraq cehiz payı verilir.

**Nəticə**

Ümumi nəticə olaraq bunu deyə bilərik ki, Azərbaycan xalçaları arasında Şirvan xalçaları özlərinə xüsusi yer tutmuşdur. Belə ki,bu xalçalar texniki xarakteristikalrı, həmdə yaranma tarixləri ilə xüsusi diqqətə malikdirlər. Parlaq rəngli yerliklər, kompozisiya quruluşları, xalça toxunması üçün istifadə olunan yun keyfiyyəti

bu qrupun xovsuz xalçalarını təkrarsız edir. Palaz, Sumax, Kilim kimi xovsuz xalçaların naxışlarına zəriflik qatıb. Xalçaların texniki, dekorativ, estetik formasını göstərən zaman çalışdıq ki, onun dəyərini, növlərinin fərqliliyini və hər bir növ daxilində sərhədsiz motivlərin zənginliyini bildirim. Xovsuz xalçalarda olan yüksək keyfiyyət, ona qarşı olan xalq arasındakı sevgi bu xalçaların inkişafında maraq yaradıb ,qorunmasına və geniş istehsalına münbit zəmin yaradıb.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Lətif Kərimov. Azərbaycan xalçası.”Azər xalça” ASC-yə səhifə 46.
2. Azərbaycan Xalçaları Şirvan qrupu.Azər ilmə səhifə 22 .
3. Azərbaycan Xalçası Bakı 2012 səhifə 8.
4. Azərbaycan Xalçaları 1/2011 səhifə 182.
5. //az.wikipedia.org/wiki/Palaz?fbclid=IwAR2yUx6pNKuQOUdj-NeZURauWHhA6cxAUz6GxlY1tdzh3Knw41202Iam8S7k
6. //az.wikipedia.org/wiki/Xovsuz_xal%C3%A7alar
7. https://azcarpetmuseum.az/az/collection/2

**Лейла Фирдовси кызы ЭФЕНДИЕВА**
Преподаватель кафедры «Дизайн» Западно-Каспийского университета
Союз художников Азербайджана
Ассоциация акварелистов Азербайджана IWS
VIPAA.Международное общество художников,
Член общественного союза ковров.
Leylavazehi9@gmail.com

## ТЕХНОЛОГИЯ РАЗРАБОТКИ И ОРНАМЕНТЫ ШИРВАНСКИХ БЕЗВОРСОВЫХ КОВРОВ В ДРЕВНЕЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

**Резюме:** В статье показано деление на ворсовые и безворсовые виды при классификации ковров и ковровых изделий и различия между ними.Главным образом, говорится о важных признаках, отличающих виды ворсовых ковров.Воплощение богатства, различия , цвет, форма и композиции, придаваемые ширванской школой ковроделия безворсовым коврам, нашли свое отражение, обсуждаются путь, история и изменения ковроткачества от начала до наших дней.

**Ключевые слова:** безворсовые ковры, классификация ковров, ширванские ковры, азербайджанские ковры, развитие.

**Leyla Firdovsi EFENDİEVA**
Teacher of the "Design" department at the Zapadno-Caspian University
Union of artists of Azerbaijan
Association of watercolorists of Azerbaijan IWS
VIPAA. International Society of Artists,
Member of the public carpet union.
**Leylavazehi9@gmail.com**

## DEVELOPMENT TECHNOLOGY AND ORNAMENTS OF SHIRVAN LINT-FREE CARPETS IN THE ANCIENT HISTORY OF AZERBAIJAN

**Summary:** The article shows the division into pile and lint-free types in the classification of carpets and rugs and the differences between them. Mainly, it talks about the important features that distinguish the types of pile carpets. The embodiment of wealth, differences, color, shape and composition, attached to the Shirvan school of carpet weaving lint-free carpets are reflected, the path, history and changes of carpet weaving from the beginning to the present day are discussed.

**Key words:** lint-free carpets, carpet classification, Shirvan carpets, Azerbaijani carpets, development.
**Daxil olub:** 02.01.2023